**Audit**

Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

## Auditorun məsuliyyəti

Bu məqalənin məqsədi təsərrüfat subyektlərinin dəvət etdiyi auditorla bağladığı auditor xidməti haqqında müqavilədə auditorun məsuliyyətini müəyyənləşdirən məzmunların nəzərdə tutulmasını diqqətə çatdırmaqdır.

Müəssisə rəhbərləri və ya mülkiyyətçilər bəzən düşünürlər ki, maliyyə hesabatlarının auditinin aparılması üçün müəssisəyə dəvət olunan auditorla sifarişçi (özləri) arasında yarana biləcək hər hansı mübahisənin həllinə əhəmiyyət vermək lazım deyil və ya hər bir halda auditor mübahisələri öz xeyrinə həll edə biləcəkdir. Amma auditorun qanunvericiliklə nəzərdə tutulan məsuliyyəti barədə məlumatı olan sifarişçi təşkilatlar auditorla bağlanılan müqavilədə hər iki tərəfin məsuliyyətini müəyyən edən maddələrə daha çox diqqət yetirirlər.

Müşahidələr göstərir ki, maliyyə hesabatlarının auditi aparılan əksər müəssisələrin fəaliyyətinə auditorlar tərəfindən Imüsbət» rəy verilir. Yəni auditor öz hesabatında əhəmiyyətli hesab edilməyən çatışmazlıqlar istisna olmaqla, müəssisənin maliyyə hesabatlarının göstəricilərini düzgün və ədalətli hesab edir.

Burada auditorun məsuliyyəti məsələsi qaçılmazdır: o, öz hesabatında maliyyə hesabatları üzrə əks etdirdiyi rəy ifadəsinə görə məsuliyyət daşıyır. Auditor təsərrüfat subyektlərində auditor xidmətinin təşkili üçün yoxlamanın məzmununu, aparılması müddətlərini, ödəniş məbləğini və qaydasını, eləcə də tərəflərin məsuliyyətini nəzərdə tutan müqavilə bağlamalıdır. Müqavilədə nəzərdə tutulan məsuliyyət müddəaları auditorun qanunla nəzərdə tutulan vəzifələrinə əsaslanmalıdır.

Məsələn, auditor auditin aparılmasında Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə hökmən riayət etməlidir, auditi keyfiyyətli həyata keçirməlidir, auditin aparılmasında iştirakının qeyri-mümkünlüyü barədə dərhal sifarişçiyə (səlahiyyətli dövlət orqanına) xəbər verməlidir, sifarişçinin mühasibat uçotunun və hesabatının vəziyyətini, düzgünlüyünü, qüvvədə olan qanunlara və normativ aktlara uyğunluğunu yoxlamalıdır, auditin aparılması zamanı aşkar edilmiş bütün pozuntular, mühasibat uçotunun aparılması və hesabatların tərtibi ilə bağlı nöqsanlar haqqında sifarişçinin rəhbərliyinə məlumat verməlidir, sifarişçinin tələbi ilə aparılan audit zamanı əldə edilən məlumatı (məhkəmə orqanlarının tələb etdiyi hallar və «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununa əsasən təqdim olunmalı məlumatlar istisna olmaqla) məxfi saxlamalıdır, yoxlamanın gedişində alınmış və ya tərtib edilmiş sənədlərin qorunub saxlanmasını təmin etməlidir, təsərrüfat subyektinin tələbi ilə auditin aparılmasına dair qanunvericiliyin tələbləri, tərəflərin hüquq və vəzifələri, habelə auditorun rəyində olan irad və nəticələr üçün əsas olan normativ aktlar barəsində ətraflı məlumatlar verməlidir, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə ilə bağlı qanunun tələblərinə riayət etməli, qanunvericiliyində nəzərdə tutulmuş digər tədbirləri həyata keçirməlidir.

Auditor xidməti haqqında Qanunun 14-cü maddəsinə görə, auditorlar və auditor təşkilatları öz vəzifələrini lazımınca yerinə yetirmədikdə qanunvericiliyə və sifarişçi ilə bağlanmış müqavilənin şərtlərinə uyğun olaraq əmlak məsuliyyətinə cəlb edilə bilərlər. Bəzən keyfiyyətsiz aparılan auditin nəticəsi olaraq auditor tərəfindən sifarişçiyə təqdim olunan auditor hesabatında əks etdirilən rəy (fikir) şəffaf olmur. Müsbət rəy ifadəsi əks etdirilən auditor hesabatı almış müəssisədə digər yoxlama və nəzarət funksiyasını həyata keçirən dövlət orqanları tərəfindən yoxlanılan dövr üzrə nəticələr fərqli olarsa, burada auditorun məsuliyyəti sifarişçi tərəfindən önə çəkilə bilər. Yaxud, vergilərin düzgün hesablanması və büdcəyə ödənilməsinin düzgünlüyünün yoxlanılması üçün müəssisəyə cəlb olunan auditorun hər hansı səhv hesablamalarına görə ziyan çəkmiş müəssisə rəhbəri həmin auditora qarşı iddia qaldıra bilər.